**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ QANUNVERİCİLİYİNDƏ ƏR-ARVAD ARASINDA ƏMLAK MÜNASİBƏTLƏRİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ PROBLEMLƏRİ

İxtisas: 5608.01 – “Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq”

Elm sahəsi: Hüquq

İddiaçı: **Əsmər Ənvər qızı Mustafayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: hüquq elmləri doktoru, professor
**Məhəbbət Dəyirman qızı Dəmirçiyeva**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, dosent
**Zaur Əlirza oğlu Məmmədov**

hüquq üzrə fəlsəfə doktoru
**Rəna Arzuman qızı Abbasova**

hüquq üzrə fəlsəfə doktoru
**Dəyanət Adıgözəl oğlu Tağıyev**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 07 aprel 2023-cü il tarixli 3-50/3-1-1-66/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent
____________________ **Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent
____________________ **Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor
____________________ **Adel İlsiyaroviç Abdullin**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"14" 04 2025

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında (bundan sonra - AR) xüsusi mülkiyyətin inkişafı, bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar edilməsi, cəmiyyətin özəyini təşkil edən ailədə əmlak münasibətlərinin hüquqi tənzimlənməsinə yenidən baxılmanı zəruri edir. Çünki ər-arvadın əmlak münasibətlərinin məzmunu, eyni zamanda, xeyli dərəcədə ölkə iqtisadiyyatının qüdrəti və inkişafı səviyyəsindən asılıdır.

Ailə üzvləri arasında münasibətlər bir-birinə sevgi, qarşılıqlı hörmət, qayğı və diqqət əsasında qurulduqda ər-arvadın hüquq və vəzifələri, o cümlədən əmlakla bağlı münasibətlər demək olar ki, mübahisə və ya müzakirə predmetinə çevrilmir. Belə şəraitdə ər-arvad nəinki özlərinin ümumi birgə əmlakından, hətta hər birinə ayrıca məxsus olan əmlakdan ümumi əmlak kimi istifadə edir. Ailə münasibətləri normal olmadıqda, ər-arvad arasında dava-dalaş, mübahisə adi hal olduqda, ümumiyyətlə, nikahın davam etdirilməsi mümkünsüz olduqda dövlətin həmin münasibətlərə müdaxilə etmək zərurəti yaranır. Qanunvericilikdə ər-arvadın ailə həyatı, o cümlədən əmlak münasibətləri sferasında bərabər hüquqlu statusda müəyyən edilməsinin əhəmiyyəti özünü məhz belə münaqişəli vəziyyətlərdə göstərir.

AR-də yeni ailə qanunvericiliyinin formalaşması, onun özünəməxsus sistemə və xüsusiyyətlərə malik olması, bu qanunvericilik üzrə ailə, o cümlədən ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin nəzəri və təcrübi problemlərinə yeni elmi yanaşmanın olmasını zəruri edir. Belə ki, 1 iyun 2000-ci il tarixinədək AR-də qüvvədə olmuş Nikah və Ailə Məcəlləsində ər-arvadın nikahadək və nikah zamanı əldə edilmiş əmlak növləri fərqləndirilirdisə, hazırda qüvvədə olan 28 dekabr 1999-cu il tarixli Ailə Məcəlləsi (bundan sonra – AM) əmlak hüquq münasibətlərini hüquqi rejimini müəyyən etmək imkanını ər-arvadın öz ixtiyarına vermişdir. Belə ki, yeni ailə qanunvericiliyi ər-arvadın əmlakının qanuni rejimi ilə yanaşı, nikah müqaviləsinin bağlanılmasında mövcud olan müqavilə rejimini də müəyyən ediir.

Bununla da yeni ailə qanunvericiliyi ər-arvadın əmlak münasibətlərinin imperativ hüquqi tənzimlənməsini dispozitiv hüquqi tənzimlənmə ilə əvəz etmişdir. Ailədə əmlak münasibətlərinin tənzimlənməsində müqavilə tənzimetmə formasından istifadə etmə, bu huququn subyektləri olan ər və arvada əmlak rejimlərini müstəqil təyin etmək, ailə həyatında qarşılaşa biləcəkləri çoxsaylı tələblərin nəzərə alınmasına imkan verir. Nikah müqaviləsi tərəflərə həmçinin ailə hüquq mübahisələrinin həllində öz şərtlərini müəyyən etməyə və tətbiq etməyə imkan yaradır.

Mövzunun aktuallığı həm də son illərdə respublikamızda nikah münasibətlərində qeyri-sabitliyin, boşanma hallarının saynın kifayət qədər çox olması ilə bağlıdır. Təcrübədən də məlum olduğu kimi, ər-arvad arasında nikahın pozulması, onlar arasındakı əmlak münasibətlərinin hüquqi tənzimlənməsi problemini gündəmə gətirir. Boşanma halları isə, bir qayda olaraq, ər-arvad arasında əmlak mübahisələrinin məhkəmə müstəvisində həll edilməsi ilə müşayiət olunur.

Ailə ittifaqının hüquqi əsası nikah, iqtisadi əsası isə mülkiyyət sayılır. Bu baxımdan mülkiyyət hüquq münasibətləri ər-arvad arasında münasibətlərin mühüm aspektini təşkil edir. Eyni zamanda, ər-arvad arasında mülkiyyətin hüquqi aspektləri öz aktuallığını təkcə nikah dövründə deyil, həmçinin nikahın xitam edilməsindən sonra da saxlayır. Belə ki, müəyyən hallarda bir-birindən ayrılmış ər-arvadın qarşısında əmlakla bağlı mübahisələrin həll edilməsi, onlar arasında nikahın pozulmasından sonra da bir problem kimi dayanır.

Tədqiqat obyekti ilə bağlı əhəmiyyətli olan bir məqam da ər-arvadın əmlak münasibətlərinin onlar arasında mövcud olan qeyri-əmlak münasibətlərinə və bu münasibətlərin səmərəli inkişafına öz təsirini göstərə bilməsidir. Bu baxımdan ər-arvad arasında əmlak münasibətlərinin düzgün hüquqi tənzimlənməsinin ailə həyatının sabitliyi üçün mühüm əhəmiyyəti vardır.

Tədqiqat işində elmi işlə bağlı araşdırmalar aparmış yerli və xarici müəlliflərin elmi əsərlərinin təhlili aparılmışdır. Milli hüquq doktrinasında ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin nəzəri və təcrübi cəhətləri elmi tədqiqat predmeti olmamışdır. Qeyd olunan problemə yalnız dərslik səviyyəsində

müraciət edilmişdir. Belə ki, ər-arvadın əmlak münasibətlərinə Q.İ.Manayev tərəfindən 1989-cu il ildə çap edilən "Sovet ailə hüququ" dərsliyində[1] köhnə ailə qanunvericiliyi üzrə, M.D.Dəmirçiyeva tərəfindən bir neçə dəfə nəşr olunan "AR-in ailə hüququ" dərsliyində[2] yeni ailə qanunvericiliyi üzrə toxunulmuşdur.

Hərçənd tədqiqat obyektini təşkil edən problem və ya onun ayrı-ayrı aspektləri xarici dövlətlərin hüquq doktrinasında fərqli vaxtlarda müxtəlif səviyyələrdə tədiqiq edilmişdir. Həmin tədqiqatlara aşağıdakıları göstərə bilərik: Abdullah Furkan Qorxmaz (Birgə mülkiyyətdə olan əşyanın istifadəsi və qorunması. İstanbul, 2021)[3], Alixanova Q.A. (Qazaxstan Respublikasında ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi // Hüquq elmi və hüquq mühafizə təcrübəsi, 2010)[4], Baqrova N.B. (Ər-arvadın əmlak münasibətlərinin fərdi hüquqi tənzimlənməsi / hüq. üzrə fəlsəfə dok. dissertasiyası. Tomsk, 2019)[5], Plyuşko D.S. (Ukrayna və Avropa İttifaqı dövlətlərinin qnunvericiliyinə əsasən nikaha xitam verilməsinin hüquqi nəticələri / hüq. üzrə fəlsəfə dok. diss. avtoreferatı. Odessa, 2023)[6], Levuşkin A.N. (Rusiya Federasiyasının qanunvericiliyi üzrə ailədə əmlak münasibətlərinin hüquqi tənzimlənməsi / hüq. üzrə fəlsəfə dok. dissertasiyası. Ulyanovsk, 2004)[7], Ximatov X.N. (Ər-arvad arasında mülkiyyət

---

[1] Manayev Q.İ. Sovet ailə hüququ. Dərslik /Q.İ.Manayev. - Bakı: ADU nəşriyyatı, - 1989

[2] Dəmirçiyeva M.D. Azərbaycan Respublikasının ailə hüququ. / M.D.Dəmirçiyeva. – Bakı: Qanun, - 2023

[3] Abdullah Furkan Qorxmaz. Birgə mülkiyyətdə olan əşyanın istifadəsi və qorunması. – İstanbul, - 2021

[4] Алиханова Г.А. Правовое регулирование имущественных отношений супругов в Республике Казахстан // Юридическая наука и правоохранительная практика, - 2010. 2 (12), - с. 63-70

[5] Багрова Н.В. Индивидуальное правовое регулирование имущественных отношений супругов / dиссертации …кан. юр. наук. Томск, - 2019

[6] Плюшко, Дмитро Сергійович. Правові наслідки припинення шлюбу за законодавством України та окремих країн ЄС / Дис. … канд. юрид. наук. Одесса, - 2023

[7] Левушкин А.Н. Правовое регулирование имущественных отношений в семье по законодательству Российской Федерации. / Дис. … канд. юрид. наук. Ульяновск, - 2004

münasibətlərinin hüquqi tənzimlənməsi problemləri: Tacikistan Respublikasının materialları əsasında / hüq. üzrə fəlsəfə dok. diss. avtoreferatı. Düşənbə, 2008)[8], Stepan Svorak (Nikah müqaviləsi və ər-arvadın birgə əmlakının bölünməsi haqqında saziş: müqayisəli hüquqi analiz // Beynəlxalq menecment jurnalı, 2020)[9] və s.

Tədqiqat zamanı aşağıda qeyd olunan milli və xarici alimlərin tədqiqatlarından elmi-nəzəri baza olaraq istifadə edilmişdir: Allahverdiyev S.S., Antokolskaya M.B., İpek Betül Aldemir, İlovayskiy İ.B., Dəmirçiyeva M.D., Kraşeninnikov P.V., Lusia Valentova, Manayev Q.İ, Məlikova M.F., Mehdiyev F., Meltem Bulud, Senar Çağırgan Tuncer, Sergeyev A.P., Şebnem Meral Yalçın, Riçard Frimiston, Tarusina N.N. və başqaları.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyekti** qismində AR qanunvericiliyi əsasında ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin nəzəri və təcrübi problemləri çıxış edir. Tədqiqatın **predmetini** isə ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi üzrə AR qanunvericiliyinin məhkəmə təcrübəsində tətbiqi ilə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədini AR-in ailə qanunvericiliyi əsasında ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin, ər-arvadın əmlakının qanuni və müqavilə rejiminin müəyyən edilməsinin nəzəri və təcrübi problemlərinin müəyyən edilməsi və problemlərin həlli istiqamətində qanunvericiliyin və məhkəmə təcrübəsinin təkmilləşdirilməsi üzrə əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması təşkil edir.

**Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı** vəzifələr **qoyulmuşdur:**

- ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi mənbəyi qismində AR-in ailə qanunvericiliyini səciyyələndirmək;
- hüquqi tənzimetmə predmeti kimi ər-arvadın əmlak

---

[8] Химатов Х.Н. Проблемы правового регулирования имущественных отношений супругов: по материалам Республики Таджикстан / Автореф. диссертации канд. юр. наук. – Душанбе, - 2008

[9] Stepan Svorak. Marriage contract and agreement on division of joint property of spouses: comparative legal analysis. // International Journal of Management (IJM) Volume 11, Issue 6, - June 2020, - pp. 123-131

münasibətlərinin xüsusiyyətlərini müəyyən etmək;

- ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi mexanizminin xüsusiyyətlərini aydınlaşdırmaq;
- ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində məhkəmə təcrübəsinin rolunu araşdırmaq;
- ər-arvadın qanuni rejim əsasında mülkiyyət hüququnun həyata keçirilməsinin xüsusiyyətlərinin müəyyən edilməsi;
- məhkəmə təcrübəsinin materialları əsasında ər-arvadın ümumi əmlakının bölgüsü və bu zaman payların müəyyən edilməsi vəziyyətinin tədqiq edilməsi;
- ər-arvadın əmlakının müqavilə rejiminin əsası kimi nikah müqaviləsinin hüquqi təbiətini müəyyən etmək;
- ər-arvadın əmlakının müqavilə rejimnin tətbiq hədlərini aydınlaşdırmaq.

**Tədqiqatın metodları.** Tədqiqatın metodologiyası hadisə və proseslərin mahiyyətini və inkişaf xüsusiyyətlərini izah etməyə, qanunauyğunluqları müəyyən etməyə imkan verən dialektika təliminə əsaslanır. Elmi araşdırma prosesində tarixi-hüquqi, məntiqi, müqayisəli hüquq, analiz və sintez, statistik, sistemli yanaşma, texniki-hüquqi, modelləşdirmə və sair metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Ailə qanunvericiliyi AR qanunvericilik sisteminin ünsürü olmaqla yanaşı, ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi sisteminin vacib ünsürü kimi çıxış edir. Bu qismdə AR-in aliə qanunvericiliyi ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin həm formal, həm də maddi mənada mənbəyini təşkil edir. Maddi mənada mənbə olaraq AR-in ailə qanunvericiliyi özündə yalnız normativ hüquqi aktları birləşdirmir.

2. AR-də ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində məhkəmə təcrübəsi (AR Konstitusiya Məhkəməsinin (bundan sonra - KM) qanunvericiliyin şərhi üzrə müvafiq qərarаları, AR Ali Məhkəməsi Plenumunun məhkəmə təcrübəsinin ümumiləşdirirlməsi üzrə qərarları, Avropa İnsan Hüquqları Məhkəməsinin (bundan sonra – AİHM) müvafiq qərarları) ailə qanunvericiliyinin *de lege lata* tətbiqi və *de lege*

*ferenda* təkmilləşdirilməsi üçün əhəmiyyətli olan köməkçi və ya əlavə mənbə qismində çıxış edir.

3. Ər-arvadın əmlak münasibətləri hüquqi tənzimetmə sisteminin obyektini (tənzim olunan hissəsini) təşkil edir. Özündə mülkiyyət hüquqi (mülkiyyət hüququnun həyata keçirirlməsi üzrə) və öhdəlik hüquqi (mülkiyyətlə bağlı öhdəliklərə uyğun məsuliyyətin müəyyən edilməsi üzrə) cəhətləri birləşdirən bu münasibətlər əmlak münasibətləri üçün xarakterik olan xüsusiyyətləri özündə ehtiva etsə də, ailə münasibətlərinə daxildir. Ailə münasibətləri olaraq ər-arvadın əmlak münasibətləri üçün xarakterik olan xüsusiyyətlər (o cümlədən xüsusi subyektlər arasında yaranması, ər və arvadın şəxsi əlaqələrinin önəm kəsb etməsi və s.) hüquqi tənzimetmə mexanizminin özünəməxsusluğunu şərtləndirir.

4. Ər-arvadın əmlak münasibətlərinin beynəlxalq xarakter kəsb etməsi (xarici ünsürlü əmlak münasibətləri), hüquqi tənzimetmədə beynəlxalq xüsusi hüququn metodlarından istifadə olunmasını şərtləndirir. Bu halda AR-in ailə qanunvericiliyinin tətbiqi müvafiq olaraq milli rejim prinsipinə və kolliziya normasının göstərişinə əsaslanır.

5. Ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində AR-in ailə qanunvericiliyinin mülki qanunvericiliyə istinad etməsi və AR-in iştirak etdiyi beynəlxalq müqavilələrin ailə qanunvericiliyinə daxil olması, müvafiq olaraq hüquqi tənzimetmə mexanizmində ailə qanunvericiliyi ilə yanaşı, mülki qanunvericiliyin və beynəlxalq hüquq (beynəlxalq müqavilə) normalarının iştirakını şərtləndirir.

6. Ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimetmə rejimi bütövlükdə dispozitiv xarakter daşıyır. Bu xarakter qeyd olunan münasibətlərin hüquqi tənzimlənməsində: 1) dispozitiv metodun imperativ metoda nisbətdə aparıcı rol oynamasını; 2) fərdi hüquqi tənzimetmədən istifadə olunmasını şərtləndirir.

7. Ər-arvadın əmlak münasibətlərinin fərdi hüquqi tənzimlənməsi, qanunvericiliyin müəyyən hədlərdə yol verdiyi üsul və vasitələrdən istifadə etməklə münasibət subyektlərinin şəxsi keyfiyyətlərindən irəli gələn fərdiləşdirilmiş davranış modelinin müəyyən edilməsidir. Fərdi hüquqi tənzimetmə müqavilə və qeyri-

müqavilə (muxtar hüquqi tənzimetmə və subordinasiyalı hüquqi tənzimetmə) formasında həyata keçirilir.

8. Ər-arvadın əmlakının qanuni rejiminin müəyyən edilməsində normativ hüquqi və fərdi hüquqi tənzimetmədən istifadə edilir. Bu halda fərdi hüquqi tənzimetmənin muxtar hüquqi və subordinasiyalı hüquqi növlərinin tətbiqi subsidiar (əlavə) xarakter daşıyır və hüquq normalarının realizəsinə xidmət edir.

9. Ər-arvadın əmlakının müqavilə rejimi ər-arvadın hüquq bərabərliyi və iradə azadlığı prinsiplərinə uyğun olaraq tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən olunur. Qarşılıqlı razılaşma predmetini əmlak təşkil edən, amma fərqli məzmuna malik olan müqavilələr (kontrakt) formasında müəyyən olunur. Nikah müqaviləsi mürəkkəb hüquqi məzmuna olmaqla müqavilə rejimini müəyyən edən əsas qarşılıqlı razılaşma forması qismində çıxış edir. Müqavilə rejiminə nisbətdə qanuni rejimdən subsidiar (əlavə) qaydada istifadə olunur. Müqavilə rejiminin üstün tətbiqi ər-arvadın əmlakına aid olan imperativ xarakterli hüquq normalarının tətbiqini istisna etmir.

**Tədqiqatın elmi yeniliyi.** İşin elmi yeniliyi milli hüquq doktrinasında ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin ilk dəfə kompleks və monoqrafik səviyyədə tədqiq edilməsi ilə izah edilə bilər. Belə ki, ilk dəfə olaraq dissertasiya işi səviyyəsində hüquqi tənzimetmə sisteminin xüsusiyyətlərinin, AR qanunvericiliyi üzrə ər-arvadın əmlakının qanuni və müqavilə rejiminin nəzəri və təcrübi aspektlərinin, bu sahədə AR qanunvericiliyinin təkmilləşdirilməsi, habelə bu hüquqi tənzimetmədə məhkəmə təcrübəsinin rolunun müəyyən edilməsi istiqamətində təkliflər işlənib hazırlanır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti milli hüquqşünaslıqda ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin nəzəri və təcrübi problemləri haqqında elmi-nəzəri biliyi dərinləşdirməsində, hüquqi şüuru bu yöndə irəliyə doğru apara biləcəyində ifadə olunur. Dissertasiya ali hüquq təhsili verən müəssisələrdə ailə hüququ fənni üzrə mühazirə və məşğələlərin aparılması, müvafiq dərs vəsaitləri, dərslik və monoqrafiyaların yazılması üçün yararlı ola bilər. Elmi işin təcrübi

əhəmiyyəti ondadır ki, dissertasiyanın müddəalarından və irəli sürülən təkliflərdən milli ailə qanunvericiliyinin təkmilləşdirilməsində, məhkəmə təcrübəsində müvafiq hüquq normalarının tətbiqinin optimallaşdırılması prosesində istifadə edilə bilər. Yeri gəlmişkən, tədqiqat işində əldə edilən nəticələrin bir çoxu artıq AR-in məhkəmə təcrübəsində tətbiq edilir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu və elmi müddəalar, qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə təcrübəsinin optimallaşdırılmasına yönəlmiş təkliflər iddiaçının çap edilmiş elmi əsərlərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş (12885), I fəsil (81933), II fəsil (119736), III fəsil (42392), nəticədən (8955) və biblioqrafiyadan (121 mənbə) ibarət olmaqla, ümumi həcmi (268242) işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları nəzəri və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Ər-arvad arasında əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin xüsusiyyətləri"** adlanır və dörd paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** AR-in ailə qanunvericiliyi ər-arvadın əmlak münasibətlərinin tənzimlənməsinin hüquqi əsası kimi təhlil edilir. Qeyd olunur ki, bu münasibətlərin tənzimlənməsi sahəsində mövcud olan ailə qanunvericiliyi sahəvi qanunvericilikdir. Bu qanunvericiliyin xüsusiyyətləri şərti olaraq müxtəlif qruplar üzrə

müəyyən edilir.

Birinci qrup xüsusiyyət AR-in ailə qanunvericiliyinin sistemi ilə bağlıdır. Bununla bağlı AR qanunvericiliyinin təhlili əsasında aşağıdakı xüsusiyyətlər müəyyən edilir:

1) müvafiq prinsip-normaları təsbit etməklə AR Konstitusiyası, həm ailə qanunvericiliyi sisteminin, həm də Beynəlxal xüsusi hüquq haqqında 6 iyun 2000-ci il Qanununun 4-cü maddəsi kontekstində AR-in ümumi qaydasının (*ordre public*) əsasını təşkil edir;

2) AM-in 1.1-ci maddəsindəki "bu Məcəlləyə uyğun olaraq qəbul edilmiş" ifadəsi, ailə qanunvericiliyinin dairəsini daraldır və ailə hüququ baxımından hüquqi nəticələr doğura bilən normaları təsbit edən digər normativ hüquqi aktların bu qanunvericilyə daxil edilməsinin qarşısını alır. Bunun aradan qaldırılması üçün həmin ifadənin çıxarılması məqsədəuyğundur;

3) AM-də ər-arvadın əmlak münasibətlərinə tətbiq edilən kolliziya normalarının təsbit olunması, onunla Beynəlxal xüsusi hüquq haqqında Qanun arasında nisbətin müəyyən edilməsini zəruri edir. Bu zaman AM beynəlxalq xüsusi hüquq qanunvericiliyinə aid normativ hüquqi akt qismində çıxış edir;

4) AM-in 1.1-ci maddəsi kontekstində MM "digər aktlara" aid edilə bilməz. Bu aktların nisbəti MM-in 2.3-cü maddəsinə uyğun olaraq, xüsusi qanun ümumi qanunu üstələyir (*lex specialis deregat lex generalis*) hüquq prinsipinə əsaslanır. Bu prinsip baxımından AM xüsusi qanunvericilik aktı qismində çıxış edir;

5) Ailə qanunvericiliyinə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr də daxildir. Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının müddəalarına və müqavilənin məqsədinə uyğun olaraq, beynəlxalq müqavilələrin normaları birbaşa və ya qeyri-birbaşa formada tətbiq edilir.

İkinci qrup xüsusiyyət ailə qanunvericiliyinin hüquqi qüvvəsi ilə bağlıdır. Konstitusiya başda olmaqla qanunvericiliyin təhlili əsasında aşağıdakı xüsusiyyətlər müəyyən edilir: 1) AM və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunan kolliziya normaları əsasında ailə qanunvericiliyi AR ərazisindən kənarda (*eksterritorial*) AR vətəndaşı olan ər-arvadın əmlak münasibətlərinə

tətbiq edilə bilər; 2) Konstitusiyanın 149-cu maddəsinin yeddinci hissəsinin, Normativ hüquqi aktlar haqqında Konstitusiya Qanunun 2-ci maddəsinin və MM-in 7-ci maddəsinin tələbləri çərçivəsində ailə qanunvericiliyinin geriyə qüvvəsi mümkündür; 3) ailə qanunvericiliyi həm AR vətəndaşı olan, həm də vətəndaşlığı olmayan və əcnəbi ər-arvadın əmlak münasibətlərinə tətbiq edilir.

Ailə qanunvericiliyi üçün xarakterik olan üçüncü xüsusiyyətlər qrupu hüququn prinsiplərinə münasibətlə bağlıdır. Birincisi, ailə qanunvericiliyi tətbiq prosesində analogiya formasında hüququn ümumi prinsiplərindən istifadə edilməsinə yol verir. İkincisi, ailə qanunvericiliyinin beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsip və normalarının üstünlüyünün tanınması istiqamətində AM-in 3-cü maddəsindəki "ümümbəşəri prinsiplər" ifadəsinin "beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları" ifadəsi ilə əvəz edilməsi, məqsədəuyğun hesab edilir.

**İkinci paraqrafda** ər-arvadın əmlak münasibətləri hüquqi tənzimetmə obyekti olaraq kimi təhlil edilir. Qeyd edilir ki, hüquqi tənzimetmə mexanizminin xüsusiyyətləri, tənzimetmə obyekti kimi çıxış edən ər-arvadın əmlak münasibətlərinin xüsusiyyətləri ilə müəyyən olunur. Ər-arvadın şəxsi əlaqələri ilə sıx bağlı olması amili bu münasibətlərin özünəməxsus xarakter kəsb etməsində mühüm rol oynayır. Amma məzmun etibarı ilə əmlak xarakterli olması, ər-arvadın əmlak münasibətlərini onların şəxsi qeyri-əmlak münasibətlərindən fərqləndirir.

Məzmun etibarı ilə əmlak xarakterli olması, ər-arvadın əmlak münasibətlərini mülki hüquq ilə tənzimlənən əmlak münasibətlərinə yaxınlaşdırsa da, onları eyniləşdirmir. MM-nin 2.3-cü maddəsi kontekstində ər-arvadın əmlak münasibətləri mülki hüquqla tənzimlənən əmlak münasibətlərinə nisbətdə "xüsusi status"da çıxış edir. Bu status ər-arvadın əmlak münasibətlərinin ilkin olaraq ailə hüquq normalarının tənzimetmə predmeti olmasını, mülki hüquq normalarının tətbiqinin isə subsidiar xarakter daşımasını şərtləndirir.

Qeyd edilir ki, aşağıdakı xüsusiyyətlər də əlavə olaraq ər-arvad arasındakı əmlak münasibətlərinin "xüsusi statusa" malik olmasını şərtləndirir: 1) bu münasibətlərin nikahın bağlanması ilə yaranması və onun pozulması xitam olunması; 2) subyekt dairəsinin

kifayət qədər məhdud olması və subyekt qisimdə bərabər statusa malik olan ər-arvadın (və ya keçmiş ər-arvadın) çıxış etməsi; 3) ər-arvadın əmlak münasibətlərinin əsasən, ekvivalent və ya əvəzli xarakterli olmaması; 4) bu münasibətlərin "uzanan xarakterə malik olması və s.

Məzmun etibarı ilə əmlak xarakterli olması, bu münasibətlərin konkret olaraq əmlakla bağlı yaranmasından irəli gəlir. Münasibətin obyekti qismində çıxış əmlak pulla qiymətləndrilə bilən bütün aktivləri və passivləri özündə ehtiva edir. Qanunvericilikdə (AM, m. 32.1) təsbit olunan "ər-arvadın əldə etdikləri" ifadəsi, onların qeyd olunan aktivlər üzərində əmlak hüquqlarını qazanmasını, "nikah müddətində" ifadəsi isə ümumi birgə mülkiyyət prezumpsiyasını nəzərdə tutur. Ər-arvadın ümumi öhdəlikləri isə ümumi birgə əmlakın passiv hissəsini təşkil edir.

Nəticə olaraq qeyd edilir ki, ər-arvadın əmlak müasibətləri özündə mülkiyyət hüquqi (mülkiyyət hüququnun həyata keçirirlməsi üzrə) və öhdəlik hüquqi (mülkiyyətlə bağlı öhdəliklərə uyğun məsuliyyətin müəyyən edilməsi üzrə) cəhətləri birləşdirməklə ailə hüquq normalarının tənzimetmə obyektini təşkil edir. Bu normaların göstərişlərinə uyğun olaraq ər-arvadın əmlak münasibətləri mülki hüquq normalarının, beynəlxalq xarakter kəsb etməsi halında isə beynəlxalq xüsusi hüquq normalarının tənzimetmə obyekti qismində çıxış edə bilər.

**Üçüncü paraqrafda** ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi mexanizminin xüsusiyyətləri təhlil edilir. Qeyd edilir ki, ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin normativ bazası qismində ailə qanunvericiliyində təsbit olunan maddi hüquq normaları tənzimetmə mexanizmin ilkin ünsürü qismində çıxış edir. İmperativ və ya dispozitiv olmasından asılı olmayaraq, bu normalar əsasında həyata keçirilən tənzimetmə maddi hüquqi tənzimetmədir.

Bəzi hallarda hüquqi tənzimetmə bu normalar əsasında həyata keçirilməyə də bilər. Belə ki, xarici ünsürlü ər-arvadın əmlak münasibətlərinin tənzimlənməsində AR-in ailə qanunvericiliyində təsbit olunan maddi hüquq normalarının tətbiqi, kolliziya normasının göstərişindən asılı olur. Bu halda hüquqi tənzimetmə maddi hüquqi

deyil, kolliziya hüquqi metodla həyata keçirilir.

Kolliziya normaları üçün xarakterik olan göndərmə və ya istinad xüsusiyyəti AM-də təsbit olunan və MM-yə göndəriş və ya istinad edən blanket normaları üçün də xarakterikdir. Ailə qanunvericiliyinə əsasən, MM-yə istinadın bir neçə formasını ayırmaq olar: 1) ər-arvadın əmlak münasibətlərinə aid olan normalar vasitəsi ilə edilən xüsusi istinad; 2) müxtəlif şəkildə təzahür edə bilən ümumi normalar vasitəsi ilə istinad; 3) analogiya forması. AM-in 5-ci maddəsinə əsasən, bu formanın aşağıdakı tətbiq şəkillərini fərqləndirmək olar: a) münasibəti bilavasitə tənzimləyən mülki hüquq normalarının tətbiqi; b) oxşar münasibətləri tənzimləyən mülki hüquq normalarının tətbiqi; c) mülki hüququn ümumi prinsiplərinin tətbiqi. Bu formalarda istinadın hüquqi nəticəsi ondan ibarət olur ki, ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində ailə hüquq normaları ilə yanaşı, mülki hüquq normaları da iştirak edir. Bu halda iki hüquq sahəsinin maddi hüquq normaları arasındakı əlaqə xüsusi qanun ümumi qanunu üstələyir (*lex specialis deregat lex generalis*) hüquq prinsipinə əsaslanır.

Ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimetmə rejiminin xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində rejimin bütövlükdə dispozitiv xarakter daşıması qeyd olunur. Bu xarakter isə aşağıdakıları şərtləndirir: 1) ər-arvadın əmlak münasibətlərinin hüquq tənzimlənməsində dispozitiv metodun imperativ metoda nisbətdə aparıcı rol oynamasını; 2) tənzimetmə mexanizmində normativ hüquqi tənzimetmə ilə yanaşı, fərdi hüquqi tənzimetmə üsullarından paralel istifadə edilməsini. Fərdi hüquqi tənzimetmə ilə bağlı hüquq doktrinasında mövcud olan yanaşmaların təhlili nəticəsində bu tənzimlənmənin müqavilə və qeyri-müqavilə növlərindən istifadə olunması müəyyən edilir.

**Dördüncü paraqrafda** ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində məhkəmə təcrübəsinin rolu təhlil edilir. Qeyd edilir ki, məhkəmə təcrübəsinin mənbə qismində qəbul edilməsinə münasibət qanunvericilikdə və hüquq doktrinasında birmənalı olmasa da, ər-arvadın əmlak münasibətlərinə tətbiq olunacaq qanunvericilik normalarının düzgün və eyni cür tətbiq edilməsində məhkəmə təcrübəsi əhəmiyyətli rol oynayır. Qeyd

olunan məqsədə nail olunması üçün müvafiq qanunvericilik normalarının "*autentik təfsir*"inin verilməsi önəmlidir. AR-in hüquqi sistemində isə "*autentik təfsir*"i yalnız Ali Məhkəmə Plenumu və AR KM verə bilir. Məhz bunun üçün tədqiqat obyekti ilə bağlı Ali Məhkəmə Plenumunun və KM-nin qərarları, əlavə olaraq AİHM-in müvafiq qərarları təhlil edilir.

Qeyd edilir ki, Ali Məhkəmə Plenumunun müvafiq qərarları ailə qanunvericiliyinin tətbiqi üzrə məhkəmə təcrübəsinə lazımi istiqamətin verilməsi, bu növ işlərin baxılmasında qanunvericiliyin düzgün tətbiq edilməsinin təmin edilməsi və vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından əhəmiyyətlidir. Bu məqsədlə Ali Məhkəmə Plenumunun "Ər-arvadın ümumi əmlakının bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" 12 mart 2024-cü il tarixli Qərarı əvvəlki qərarlarla müqayisəli şəkildə təhlil edilir.

Müəyyən edilir ki, AR KM-nin: AM-in müvafiq maddələrinin Konstitusiyaya uyğun şərh edilməsi, Ali Məhkəmənin konkret işlər üzrə qəbul etdiyi qərarların Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılması və AM-in normalarının Konstitusiyaya uyğunluğunun yoxlanılması üzrə qəbul etdiyi qərarlar *de lege ferenda* ailə qanunvericiliyində müvafiq dəyişikliyin edilməsində, *de lege lata* mövcud ailə qanunvericiliyi normalarının məhkəmə təcrübəsində düzgün təfsir və tətbiq edilməsində əhəmiyyətli rol oynayır.

Yuxarıda qeyd olunan hər üç məhkəmə orqanının qərarlarının təhlil əsasında müəyyən edilir ki, AR-in ailə qanunvericiliyi ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində məhkəmə təcrübəsindən istifadə edilməsini istisna etmir. Və bu nəticə aşağıdakı xüsusiyyətlərlə müşayət olunur: 1) məhkəmə təcrübəsi əlavə və ya köməkçi mənbə qismində çıxış edir; 2) məhkəmə təcrübəsi qanunvericilikdə mövcud olan boşluğun aradan qaldırılmasına xidmət edir; 3) məhkəmə təcrübəsi təfsir aktı olan "*şərh presedenti*" rolunu oynayır.

Dissertasiya işinin ikinci fəsil "**Ər-arvadın əmlakının qanuni rejimi: nəzəriyyə və təcrübə"** adlanmaqla iki paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** ər-arvadın mülkiyyət hüquqlarının həyata keçirilməsi məsələsi araşdırılır. Bu məqsədlə AR qanunvericiliyi ilə digər dövlətlərin qanunvericiliyi müqayisəli təhlil edilir. Eyni zamanda ailə qanunvericiliyi və onun tətbiq təcrübəsinin müqayisəli təhlili aparılır.

Qeyd edilir ki, qanunvericiliyə uyğun olaraq ər-arvadın əmlakının qanuni rejimi subsidiar xarakter daşıyır və onun tətbiqi ər-arvadın iradəsindən asılıdır. Yəni, ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir. Əmlakın növündən asılı olaraq, bu razılığın formasını fərqli ola bilər. Qanunvericilikdə (AM, m.32.1) təsbit olunan "ər-arvadın əldə etdikləri" ifadəsi, ər-arvada məxsus olan əmlak üzərində mülkiyyət hüquqlarını qazanmasını ehtiva edir. Qeyd olunan maddədəki "nikah müddətində" ifadəsi isə ər-arvadın ümumi birgə mülkiyyət prezumpsiyasını nəzərdə tutur. Bu o deməkdir ki, "ər-arvadın ümumi gəlirləri hesabına" (AM, m.32.2.2) və ya "onların hər birinin...fəaliyyəti nəticəsində" (AM, m.32.2.1) əldə edilməsindən asılı olmayaraq, nikah dövründə qazanılan əmlak hüquqlarının ər-arvadın ümumi vəsaiti hesabına baş verməsi ehtimal olunur. Ər-arvadın ümumi əmlakı nikah dövründə əldə edilən və iqtisadi dəyərə malik olan və pulla dəyərələndirilə bilən bütün aktivləri və passivləri (ər-arvadın ümumi öhdəlikləri) özündə birləşdirir.

Ailə qanunvericiliyi ər-arvadın ümumi birgə əmlakı ilə yanaşı, aşağıdakıları da istisna etmir: 1) ər və arvadın hər birisinin ayrıca mülkiyyətə malik olmasını; 2) ər-arvadın ayrıca mülkiyyətində olan əmlakın onların ümumi birgə mülkiyyəti hesab olunmasını; 3) ər-arvadın ümumi birgə əmlakının bölünməsi və ya ər-arvadın hər birinə məxsus olan payların müəyyən edilməsini.

Məhkəmə təcrübəsinin təhlil üzrə müəyyən edilir ki, Ali Məhkəmə Plenumunun 1/2024 saylı Qərarı mövcud qanunvericiliyin *de lege lata* düzgün tətbiqi üzrə vahid məhkəmə təcrübəsinin formalaşması istiqamətində əhəmiyyətli ola bilər. Bunu əlavə olaraq aşağıdakılarla da əsaslandırmaq olar: 1) nikaha daxil olanadək və nikah dövründə keçirilən mərasimlərdə ər və ya arvada hədiyyə verilən ziynət əşyalarının onların ayrıca əmlakına aid olması təsdiq

edilir; 2) zinyət əşyalarının siyahısı müəyyən edilir. Belə ki, bu əşyalara yalnız qiymətli metallar deyil, digər qiymətli bəzək, süs, yaraşıq əşyaları (qol saatları, geyim aksesuarları və s.) da daxil edilir.

**İkinci paraqrafda** ər-arvadın ümumi əmlakının bölünməsi sahəsində qanunvericilik və məhkəmə təcrübəsi təhlil edilir. Təhlil əsasında aşağıdakı nəticələr müəyyən edilir:

Ailə qanunvericiliyi ümumi əmlakın bölünməsini ər-arvadın iradəsindən asılı olmasını müəyyən edir. Ümumi əmlakın bölünməsi üzrə ər-arvadın razılaşması, tərəflər üçün icrası məcburi olan müqavilə öhdəliyi yaradır. Ümumi əmlak ər-arvad tərəfindən artıq bölünmüşdürsə və ya hər hansı əşyalar mübahisələndirilmirsə, tərəflərin iradəsi ziddinə həmin əmlak bölünə bilməz.

Ər-arvadın əmlakının bölgüsü nikah dövründə, nikah pozulduqdan sonra və bunu istəyən kreditorun istəyi ilə aparıla bilər.

Əmlakın bölgüsü zamanı ər-arvadın ümumi əmlakdakı payları bərabər hesab olunur (payların bərabərliyi prezumpsiyası) və onların ümumi borcları bu paylara müvafiq olaraq müəyyənləşdirilir. Qeyd olunan prezumpsiya bölgü zamanı mütənasibliyin gözlənilməli olmasını ehtiva etsə də, ər-arvadın, həmçinin uşaqların diqqətəlayiq mənafelərinin nəzərə alınmalı olmasını istisna etmir.

Ər-arvad arasında əmlakın bölgüsü natural qaydada aparılır və bu zaman əmlakın xüsusiyyəti (bölünə bilən, yoxsa bilinməyən olması, dəyəri və s.), tərəflərin istəyi nəzərə alınır.

Nikahın etibarsız hesab edilməsi halında və faktiki nikah münasibətlərində olan şəxslərin əmlakının bölünməsi mülki hüquq normaları əsasında həyata keçirilir. Bu zaman Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının AR MM-nin paylı mülkiyyətlə bağlı bəzi müddəalarının tətbiqi məsələləri üzrə 6 dekabr 2024-cü il tarixli Qərardadı nəzərə alına bilər.

Ali Məhkəmə Plenumunun 1/2024 saylı Qərarı ər-arvadın ümumi birgə əmlakın bölünməsi üzrə ailə qanunvericiliyinin *de lege lata* düzgün tətbiqi istiqamətində vahid məhkəmə təcrübəsinin formalaşmasında əhəmiyyətli rol oynayır.

Dissertasiya işinin üçüncü fəsli **"Ər-arvadın əmlak münasibətlərinin müqavilə tənzimlənməsinin xüsusiyyətləri"**

adlanır və iki paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** ər-arvadın əmlak münasibətərinin hüquqi tənzimlənməsi əsası kimi nikah müqaviləsinin hüquqi təbiəti araşdırılır. Bu məqsədlə və AR təcrübəsində nikah müqaviləsinin geniş tətbiq edilməməsi müstəvisində AM və MM-nin müddəalarının müqayisəli analizi aparılır. Qeyd edilir ki, nikah müqaviləsi xüsusi hüquq sisteminin əsas prinsipi olan iradə azadlığını realizə etməklə əsas fərdi tənzimetmə forması kimi çıxış edir. Nikah müqaviləsinin mövcudluğu ər-arvad arasında olan əmlak münasibətlərinin qanuni rejiminin subsidiar tətbiq edilməsini şərtləndirir. Nikah müqaviləsi ər-arvadın əmlakla bağlı razılaşmasının bir formasını təşkil edir.

Nikah müqaviləsinin hüquqi təbiəti ilə bağlı doktrinada olan mövcud yanaşmalar təhlili edilərək qeyd olunur ki, nikah müqaviləsi ailənin maraqlarını təmin etmək məqsədi daşıması, nikahla sıx bağlı olması və yalnız nikahla birlikdə hüquqi nəticə doğurması səbəbindən, eləcə də subyekt tərkibinə görə ailə hüququna aid olan *xüsusi statuslu* əqddir. AM-in imperativ xarakterli tələbləri nəzərə alınmaqla bağlanan bu müqavilə əmlakla bağlı ər-arvad üçün hüquq və vəzifələr müəyyən edir. Müddətsiz olmasına baxmayaraq nikah müqaviləsi tərəflərin razılığı ilə dəyişdirilə və pozula bilər.

Mülki hüquqa da aid olan iradə azadllığı prinsipinin realizə forması olmaqla nikah müqaviləsi "xüsusi statusu" ilə yanaşı, MM-nin müqavilələrlə bağlı müddəalarının tələblərinə də cavab verməlidir. Bu baxımdan nikah müqaviləsi bağlanarkən AM-də təsbit olunan normalarla yanaşı, MM-nin müqavilə ilə bağlı müddəaları də nəzərə alınır. Faktiki nikah münasibətlərində isə ümumi və ya fərdi mülkiyyətin rejimini müəyyən edən razılaşma (müqavilə), eyni məqsədə xidmət etsə də, nikah müqaviləsi sayılmır. Və belə razılaşmalar mülki hüquq normaları əsasında tənzimlənir.

**İkinci paraqrafda** ər-arvadın əmlakının müqavilə rejiminin tətbiqi hədləri təhlil edilir. Qeyd edilir ki, AR-in ailə qanunvericiliyi ər-arvadın əmlak münasibətlərinin müqavilə tənzimlənməsinə üstünlük versə də, ər-arvadın iradə azadlığını qeyri-məhdud müəyyən etmir.

İlk olaraq nikah müqaviləsinin predmeti qanunvericilikdə müəyyənləşdirilmiş əsaslara uyğun olmalıdır. Yəni, müqavilə rejiminin etibarlı sayılması üçün nikah müqaviləsi etibarlı sayılmalıdır. Müqavilənin etibarsız sayılması üçün müəyyən edilmiş şərtlər sırasında ilk öncə tərəflərin fəaliyyət qabilliyətli olmasını qeyd edilməlidir. Eyni zamanda nikah müqaviləsi forma baxımdan etibarlı sayılmasıdır. Yəni, nikah müqaviləsi yazılı formada tərtib olunmalı və notarial qaydada təsdiqlənməlidir.

Ailə qanunvericiliyi nikah müqaviləsinin bağlanma anı ilə bağlı məhdudlaşdırıcı norma nəzərdə tutmasa da, tərəflərin nikaha daxil olmaları vacib şərtdir. Öncədən bağlanması halında nikah müqaviləsi nikahın bağlanması anından qüvvəyə minir.

Qanunvericilik nikah müqaviləsinə əmlakla bağlı ər-arvad üçün vəzifələr müəyyən edən müddəaların salınmasını nəzərdə tutur. Bununla yanaşı, nikah müqaviləsinə tərəflərdən hər hansı birinin hüquqlarını məhdudlaşdıran, ümumi qaydaya (*ordre public*) zidd olan müddəalar daxil edilə bilməz. Əks halda nikah müqaviləsi bağlandığı andan etibarsız hesab edilir.

AM-in 38.6-cı maddəsindəki "nikah müqaviləsində...ər-arvadın şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən.. müddəalar nəzərdə tutula biməz" müddəasına əsasın belə qənaətə gəlmək olar ki, AR qanunvericiliyinin nikah müqaviləsinin predmetinin yalnız əmlak münasibətlərindən ibarət olması ilə bağlı mövqeyi imperativdir. Ər-arvadın bu imperativdən istisna etməsi ehtimalı belə istisna edilir. Əks halda bu nikah müqaviləsinin etibarsızlığı ilə nəticələnə bilər.

**Dissertasiyanın nəticə hissəsində** əldə edilmiş mühüm təklif və nəticələr ümumi şəkildə belə ifadə edilmişdir:

1. Ər-arvadın əmlak münasibətlərinin tənzimlənməsinin əsas hüquqi əsası olmaqla AR-in ailə qanunvericiliyi, tənzimetmə mexanizminin əsas ünsürü olan maddi hüquq normalarını, xarici ünsürlü ailə münasibətlərinə tətbiq edilən kolliziya normalarını, eləcədə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilə normalarını birləşdirməklə özünəməxsus sahəvi qanunvericilik sistemini ehtiva edir.

2. AR-in ailə qanunvericiliyi aşağıdakı xüsusiyyətlərlə ər-

arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsi sistemində məhkəmə təcrübəsindən istifadə edilməsini istisna etmir: 1) məhkəmə təcrübəsi əlavə və ya köməkçi mənbə qismində çıxış edir; 2) qanunvericilikdə mövcud olan boşluğun aradan qaldırılmasına xidmət edir; 3) məhkəmə təcrübəsi təfsir aktı olan "şərh presedenti" rolunu oynayır.

3. Hüquqi tənzimetmə obyekti olaraq ər-arvadın əmlak münasibətləri, aşağıdakı əlamətlərlə mülki hüquqla tənzimlənən əmlak münasibətlərinə nisbətdə "xüsusi status"a malikdir: 1) bu münasibətlər nikahın bağlanması ilə yaranır və onun pozulması ilə xitam olunur; 2) bu münasibətlərin subyektləri qismində ər və arvad (və ya keçmiş ər-arvad) çıxış edir; 3) bu münasibətlərin tənzimlənməsinə ər-arvadın şəxsi əlaqələri əhəmiyyətli dərəcədə təsir edir; 4) bu münasibətlər özündə ər-arvadın mülkiyyət (*ümumi birgə və ya hər birinin mülkiyyəti*) hüququnun həyata keçirirlməsi üzrə (mülkiyyət hüquqi) və ər-arvadın mülkiyyətlə bağlı öhdəliklərinə uyğun məsuliyyətin müəyyən edilməsi üzrə (öhdəlik hüquqi) xüsusiyyətləri birləşdirir.

4. Ər-arvadın əmlak münasibətlərində xarici ünsürün iştirak etməsi aşağıdakıları şərtləndirir:1) ər-arvadın əmlak münasibətlərinin hüquqi tənzimlənməsində kolliziya hüquqi metoddan istifadə olunmasını; 2) AR-in ailə qanunvericiliyinin maddi normalarının tətbiqinin, kolliziya normasından asılı olmasını; 3) beynəlxalq xüsusi hüquq qanunvericiliyi ilə ailə qanunvericiliyi arasında nisbətin həll edilməsi zərurətini. Sonuncunun həlli istiqamətində AM beynəlxalq xüsusi hüquq qanunvericiliyinə aid normativ akt qismində çıxış edir.

5. Ailə qanunvericiliyi ər-arvadın əmlak münasibətlərinin tənzimləməsində mülki qanunvericiliyə istinadın müxtəlif formalarını müəyyən edir. Belə istinadların edilməsi halında iki hüquq sahəsinin maddi hüquq normaları arasındakı əlaqə xüsusi qanun ümumi qanunu üstələyir (*lex specialis deregat lex generalis*) hüquq prinsipinə əsaslanır.

6. AM-in normaları ilə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrin normaları arasında ziddiyyətin yaranması halında aşağıdakılar nəzərə alınmalıdır. 1) AR qanunvericiliyi bu halda

beynəlxalq müqavilə normalarına üstünlük verilməsini müəyyən edir; 2) beynəlxalq müqavilələrin normaları Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyası müddəalarına və müqavilənin məqsədinə uyğun olaraq təfsir və tətbiq edilir; 3) beynəlxalq müqavilə normalarının tətbiqi AR-in ümumi qaydasını (*ordre public*) pozmamalıdır.

7. Ər-arvadın əmlak münasibətlərinin fərdi tənzimlənməsinin müqavilə və qeyri-müqavilə növlərindən istifadə edilir. Bir qayda olaraq nikah müqaviləsi formasında təzahür edən müqavilə tənzimetməsi ər-arvadın əmlakının fərqli rejimini müəyyən etməklə əsas tənzimetmə növünü təşkil edir. Qeyri-müqavilə növündə fərdi tənzimetmə: 1) muxtar tənzimetmə (tərəflərdən biri hüququnu birtərəfli qaydada digər tərəfə vermək yolu ilə həyata keçirir); 2) subordinasiyalı tənzimetmə (konkret mübahisə hüquq mühafizə orqanlarının fəaliyyəti ilə həll edilir).

8. Ər-arvadın əmlakının qanuni rejiminin subsidiarlığı, tənzimetmə rejiminin dispozitivliyindən irəli gəlməklə onda ifadə olunur ki, tərəflər öz aralarındakı maddi məzmunlu münasibətlərin ya nikah müqaviləsi ilə tənzimlənməsini istəmir, ya nikah müqaviləsi ləğv edilmiş və yaxud etibarsız sayılır. Əks halda, tərəflərin iradəsi ziddinə olaraq qanuni rejim tətbiq edilə bilməz. Bu xüsusilə ər-arvadın əmlakının bölünməsində nəzərə alınmalıdır.

9. Ər-arvad arasında razılaşmanın bir forması qismində çıxış edən nikah müqaviləsi ailənin maraqlarını təmin etmək məqsədi daşıması, nikahla sıx bağlı olması və yalnız nikahla birlikdə hüquqi nəticə doğurması səbəbindən, eləcə də subyekt tərkibinə görə ailə hüququna aid olan *xüsusi statuslu* əqddir. Bununla yanaşı, nikah müqaviləsinin bağlanılması zamanı ailə qanunvericiliyinin imperativ normaları və müqavilələrlə bağlı mülki qanunvericiliyin müddəaları pozula bilməz. Əks halda bu nikah müqaviləsinin etibarsız hesab edilməsi ilə nəticələnə bilər.

**Yuxarıda qeyd olunan nəticələrə müvafiq olaraq aşağıdakılar təklif olunur**:

a) ailə münasibətləri sahəsində AR-in ümumi qaydasının (*ordre public*) qorunması məqsədi ilə Konstitusiyanın 34-cü maddəsindəki "ər və arvad" ifadəsinin "ər (kişi) və arvad (qadın)"

formasında təsbit edilməsi məqsədəuyğundur.

b) ailə münasibətlərinə tətbiq edilə biləcək normalarrrı təsbit edən normativ hüquqi aktların ailə qanunvericiliyinə daxil edilməsinin mümkün olması baxımından AM-in 1.1-ci maddəsindəki “bu Məcəlləyə uyğun olaraq qəbul edilmiş” ifadəsi çıxarılmslı və həmin maddədə “bu Məcəllədən” sonra “digər müvafiq qanunvericilik aktlarından” ifadəsinin təsbit edilməsi məqsədəmüvafiqdir.

c) AM-in 5-ci maddəsindəki “ailə qanunvericiliyinin və mülki qanunvericiliyin ümumi prinsipləri” ifadəsinin “ailə hüququnun və mülki hüququn ümumi prinsipləri” kimi, “humanizm və ədalət prinsipləri” ifadəsinin “humanizm və ədalət kimi hüququn ümumi prinsipləri” kimi təsbit edilsin.

d) ailə qanunvericiliyinin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğunlaşdırılması və həmin normaların üstünlüyünün tanınması məqsədi ilə AM-in 3.0.1-ci maddəsində təsbit olunan “ümümbəşəri prinsiplər” ifadəsinin “beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları” ifadəsi ilə əvəz edilməsi məqsədəmüvafiqdir.

e) AM-in 32.3-cü maddəsində üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər-arvadın ümumi əmlak üzərində bərabər hüquqa malik olmasının təsbit edilməsi və bu məqsədlə həmin maddənin sonunda olan “hüquqa malikdir” sözlərindən əvvəl “bərabər” sözünün əlavə olunması məqsədəuyğundur.

ə) MM-nin 213-cü maddəsində “bir neçə” sözünün “iki və daha çox” sözü ilə əvəz edilməsi zəruridir. Çünki “iki və daha çox” sözündə minimum say ikidir, maksimum say həddində isə məhdudiyyət yoxdur.

f) AR-in 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Qanunu ilə AM-in 33.3-cü maddəsində “ərin (arvadın) tələbi ilə məhkəmə tərəfindən etibarsız hesab oluna bilər” sözləri “ər (arvad) tərəfındən mübahisələndirə bilər” sözləri ilə əvəz edilmişdir. Burada söhbət mahiyyət etibarı ilə bağlanmış əqdin ərin (arvadın) tələbi ilə məhkəmə qaydasında etibarsız hesab olunmasından gedir. “Əqdin etibarsız hesab oluna bilinməsi” müddəası “əqdin mübahisələndirilməsi” müddəası ilə müqayisədə daha qəti və aydın

mәna kәsb edir. Odur ki, AM-in 33.3-cü maddәsinin ilk redaksiyası daha uğurlu sayılır.

g) AM-in 36.4-cü maddәsinin mәzmununun hüquqi müәyyәnliyini daha da artırmaq üçün burada ikinci cümlәdә olan "digәrinә" sözündәn sonra "qarşı tәrәfin hesabına" ifadәsinin әlavә olunması mәqsәdәuyğundur.

**Dissertasiyanın әsas müddәaları iddiaçının aşağıdakı elmi әsәrlәrindә öz әksini tapmışdır:**


1. Ailә hüquq münasibәtlәrinin bәzi spesifik cәhәtlәri haqqında //- Bakı: Qanun elmi hüquq jurnalı, - 2018. № 10 (288), - s. 9-14.
2. Әr-arvad arasında әmlak münasibәtlәrinin tarixi yanaşma kontekstindә ümumi xarakteristikası // - Bakı: Qanun elmi hüquq jurnalı, - 2018. № 11 (289), - s. 28-37.
3. Әr-arvad arasında әmlak münasibәtlәrinin fәrdi hüquqi tәnzimlәnmәsi / Bakı Dövlәt Universitetinin hüquq fakültәsinin 90 illik yubileyinә hәsr olunmuş "Azәrbaycan Respublikasının beynәlxalq cәmiyyәtә inteqrasiyası vә hüquqi dövlәt quruculuğunda hüquq elminin müasir inkişaf tendensiyaları" mövzusunda beynәlxalq elmi-praktiki konfransın materialları, - Bakı: - 14 dekabr, - 2018-ci il, - s 521-523.
4. Әr-arvad arasında әmlak münasibәtlәrinin qanuni rejim üzrә tәnzimlәnmәsinin bәzi mәsәlәlәri // - Баку: Юридические науки и образования (Juridical sciences and education), - 2019. № 59, - s. 155-176.
5. Beynәlxalq tәcrübәdә әr-arvad arasında әmlak münasibәtlәrinin hüquqi tәnzimlәnmәsi / Azәrbaycan xalqının ümummilli lideri Heydәr Әliyevin anadan olmasının 96-cı ildönümünә hәsr olunmuş "Azәrbaycan Respublikasında müasir hüquq elminin inkişaf istiqamәtlәri" mövzusunda respublika elmi-praktiki konfransın materialları, - Bakı: - 21

may, - 2019, -s. 190-192.

6. Azərbaycan Resublikasının ailə qanunvericiliyi üzrə ər-arvad arasında əmlak bölgüsünün bəzi məsələləri // - Баку: Юридические науки и образования (Juridical sciences and education), -2019. № 60, - s. 359-375.
7. Ər-arvad arasında əmlak münasibətlərinin hüquqi təbiətinin bəzi xüsusiyyətləri // - Bakı: Qanun elmi hüquq jurnalı, 2019. № 9 (299), - s. 83-86.
8. Исторические корни правового регулирования имущественных отношений между супругами в Азербайджанской Республике / Актуальные проблемы правового образования в современном мире: в условиях глобализации развития инфраструктуры. Материалы X Международной научно-практической конференции, - Киев: 02-03 апреля, - 2020, - с. 104-109.
9. Ər-arvad arasında əmlak münasibətlərinin hüquqi tənzimlənməsinin üsulları // - Bakı: Polis Akademiyasının Elmi Xəbərləri. Elmi hüquq jurnalı, - 2020. № 3 (27), - s. 87-91.
10. Правовое регулирование имущественных отношений между супругами в международной практике. Шляхи розвитку правової науки в умовах сьогодення / Матеріали XI Міжнародної науково-практичної конференції, - Киев: - 22-23 апреля, - 2021, - с. 92-97.
11. Раздел общего имущества супругов и определение их долей по законодательству Азербайджанской Республики // - Москва: Право и государство: теория и практика, - 2021. № 6 (198), - с. 220-223.

Dissertasiyanın müdafiəsi 21 may .2025-ci il tarixində saat 13.00da Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-33. I korpus, auditoriya 608.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18.04.2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.04.25

Kağızın formatı: A5

Həcm: 36282

Tiraj: 100